# GÖZLƏNİLMƏZ GÖRÜŞ



*Qəzənfər KAZIMOV, professor*

*(Əvvəli ötən saylarımızda)*

**MƏKTUBU**

Hörmətli qardaşım Qəzənfər!

Səni salamlayıram, uzaqdan olsa da, bağrıma basıram!

Bütün ailə üzvlərini səmimi-qəlbdən əzizləyib, hamınıza can sağlığı, xoşbəxtlik, müvəffəqiyyətlər diləyirəm. Şadam ki, 55 ildən sonra qiyabi də olsa görüşdük. Ömrümüzün baharında ayrıldıq, payızında isə haradan-haraya isə görüşə bildik. Sən mənim «yazılarımı» oxudun, mənim haqqımda olan mətbuat ilə tanış oldun. Mən isə sənin «Sənət düşüncələri»ni və «Dilimiz-tariximiz»i oxudum. Ümidvaram ki, bundan sonra məktublaşmalı, bir-birimizə zəng etməli, qismət olsa, görüşməli olarıq, inşallah!

Rəhmətlik anam Suduşdan sənin haqqında eşitmədiklərimi, sənin kitablarından bildim, bəlkə də bunlar hamısı deyil. 9 may 2006-cı ildə Azərbaycan diasporu Sevostopol şəhəri yaxınlığındakı Sapun-Qora (Sabun dağı) döyüşlərində həlak olmuş azərbaycanlıların abidəsinə çiçək qoymağa yığılmışdı. Mən orada sənin «Kredo» qəzetində çap etdiyin «İstiqbal arzuları» yazımı oxudum. Oradaca Əliyev Həbiblə tanış olduq. Söhbət əsnasında məlum oldu ki, o sənin tələbən olub. Sonra məndən həmin yazıları və mənim haqqımda olan məlumat qeydlərimi istədi: «Sənin kimi adamı vətənə tanış etmək lazımdır». Düzünü deyim, Həbibin sənə göstərdiyi materialları könülsüz verdim. Ömründə nə qədər azərbaycanlı məni aldadıb, istifadə edib. Razı oldum, ona görə ki, indi ki, sənin dostundur. Fikirləşdim ki, Qəzənfər adamları tanıyır. Mənfi adamla dost ola bilməz, onunçün verdim. Məktubumun lap əvvəlində üzr istəmək istəyirəm ki, yəqin, bu 48 il ərzində öz dilimdə danışmadığımdan, sonra latın qrafikasını (Azərbaycan variantını) televizora baxa-baxa öyrəndiyimdən cümlə, söz əyriliklərinə yol verə bilərəm, hərfləri düzgün yazmaya bilərəm. 1960-cı ildən bu günə kimi hamısını cəmləşdirsən, vur-tut 150-200 saat öz dilimizdə danışmalı olmuşam. Elə illər olub ki, heç bir söz də ana dilində ifadə etməmişəm. Dilimin codlaşmasına bir səbəb də odur ki, sərbəst danışdığım özbək, tatar, noqay, başqırd sözlərinin müdaxiləsi də ola bilər. Mənə elə gəlir ki, mənim söz ehtiyatım, onun genetikası inkişaf etməyib, müasirləşməyib, maye, azot içində «buzlaşdırılıb» saxlanıbdır. Ancaq fəxr edirəm ki, öz «soltanlı» - tərəkəmə-loru dilimi qorumuşam, «ruslaşdırmamışam» və «osmanlılaşdırmamışam!»

Qardaş! Mən axırıncı dəfə Bakıda 1998-ci ildə may ayında bir həftə oldum, qohum-əqrabaları axtarıb tapdım. Gördüklərim məni sarsıtdı. Mən Bakıdan baş götürüb üçüncü dəfə qaçmaq istədim. AZİ-də Hüseynlə (şagird yoldaşımız Hüseyn Alısoy, Sənaye İnstitutunun professoru, dekanı - Q.K.) görüşdüm (10-15 dəqiqə). Səni soruşdum. Professor olduğunu ondan eşitdim, şad oldum. Əliyev Bəhlulu da (bizdən bir-iki yaş böyük, AZİ-nin dosenti, Soltanlı) (bizdən bir-iki yaş böyük, AZİ-nin dosenti, Soltanlı - Q.K.) orada gördüm, qısa söhbət etdik. Kim ilə görüşdümsə (Hüseyndən başqa), hər yanda soyuqluq gördüm.

Burada heç kimi qınamaq istəmirəm. Bizim xalq laqeyd, parıltı, qızıl, pul və s. sevən xalqdır. Mən Bakıdan qayıdandan sonra yaddaşımda olanları yazmaq fikrinə düşdüm, çap etmək üçün yox, özüm üçün. Hiss etdim ki, özüm-özümlə danışmalıyam. Başladım yazmağa. Nəsr və nəzm şəklində bacardığım qədər yazdım. Mən şeir yazmıram, yazdıqlarıma «yazı» deyirəm. 62 yaşda şair olub şeir yazmaq mümkün deyil. Seçdiyim mövzular - uşaqlıq xatirələri, tərəkəməlik, babamgillə yaylaqlara köç getməyimiz, adət-ənənələr, yemək-içməklər, kümə qurmaq, yurd tutmaq, Soltanlının təbiəti və coğrafiyası, atalar sözləri, nəsihətlər, ibrətli sözlər və s. Artıq indi xeyli yazılarım var. Özü də latın qrafikası ilə. Həbib tanış olanda mənə dedi ki, bu yazıları çap etmək lazımdır, çünki Bakıda «belə və bu cür» yazmırlar, həm də ki 62-67-69 yaşlarında.

İndi qısaca olaraq özüm haqqında. Mənim gördüklərimi, başıma gələnləri, yazdıqlarımı (texniki əsərlərlə birlikdə) bədii şəkildə sənin kimi bir adam yazsa, olduqca cəlbedici, maraqlı və bir neçə cildlik kitab ola bilər.

1960-cı ildə Özbəkistandan qayıdandan sonra (təyinatı ora verilib, gedib "geriyə qayıtma" kağızı alıb, Bakıya gəlib ki, burada iş tapa, tapa bilməyib) ay yarım Bakıda səfil oldum, «Azneft»də mənə iş vermədilər, yaxşı ki, təyinat kağızını cırıb atmamışdım, yenə də geri döndüm. Bir aydan sonra çilingərlikdən mühəndisliyə yüksəldim, 1965-ci ildə «Özbəkneft» dövlət birləşməsinin baş mühəndis müavini, 1966-cı ildə Neftmədənləri idarəsinin baş mühəndisi, rəisi, 1970-ci ildə «Soyuzneyteaftomatika» Ümumittifaq Əndican Birləşməsinin direktoru oldum. 1964-cü ildə Özbəkistan neftçiləri üçün stolüstü kitab olan bir kitab yazdım («Neft və qaz çıxartmanın texniki, texnoloji xüsusiyyətləri»), verdim nəşriyyata. 1965-ci ildə çap olundu. İndiyə kimi bu kitab yerli mütəxəssislər üçün bir öyrənmə, metodoloji mənbə kimi istifadə olunur. İkinci kitabım 1970-cı ildə Moskvada çap olundu.

Sənin yadından çıxıb, sən mənim banketimdə («Bakı» mehmanxanasının ziyafət zalında, axırıncı etaj) az bir müddətdə oldun. Tələsirdin görüşə. Az yedin, az içdin, mənlə halallaşıb dedin: «Səni təbrik edirəm» (mən onda müdafiə etmişdim). Dedin, «Olar burdakı bu güllərdən götürüm, görüşə gedirəm». «Qurbandı sənə, onsuz da bu güllər burda qalacaq. Al apar, nə qədər gücün çatır» - dedim. Bundan sonra sən qeyb oldun, bizə bir də görüşmək nəsib olmadı. Çox təəssüflər!

1987-ci ildə Vilayət Partiya Komitəsi razılığım olmadan məni zavod direktoru təyin etdi. Başıma gələn faciəni indi bilərsən. Təkrar etmək mənə ağırdır. Hər şeyi itirdim - doktorluq müdafiəsi, vəzifə, ad, avtoritet, ev-eşik, var-dövlət, ən əsası, mələkə qızım. 52 yaşımda bir günə düşdüm - heç nə, canlı ölü. (təyinatı ora verilib, gedib "geriyə qayıtma" kağızı alıb, Bakıya gəlib ki, burada iş tapa, tapa bilməyib - Q.K.)

Krıma köçməli olduq. Bizi müharibədə olan Azərbaycanda heç kim gözləmirdi. Yad yerdə tanışsız, evsiz, işsiz qaldıq küçədə.

1994-cü ilə kimi işləmədik. Özbəkistana tez-tez getməli olur, tutulan qatilin məhkəməsi, istintaqı ilə vaxt keçirirdim. Əsas nəticə o oldu ki, bu qatilin güllələnməsinə nail oldum. Sonra arxayınlaşdım. Ev tikmək üçün hökumətdən «suda» aldım, ev tikdim, elə bu pulla da quru çörək, marqarin alıb qaynar su ilə içməli olduq. Sonra isə girdim işə - adi mühəndis. Sudanı qaytardım. Özümə və oğluma iki ev tikdim. İndi bizim evlərin ümumi yaşayış sahəsi 800 kv m.-dən çoxdur. Oğlum və qızım həkimdirlər. Oğluma iş kabineti tikdim. Evlərə su, qaz, elektrik çəkdirdim. Bizim evlərin



*Valeh Soltanlı*

üstündə indi 7 sputnik tarelkası, ixtiyarımızda 7 mobil telefon və üç ev telefonu var, 18 sot həyətyanı sahəmiz, bağ-bağçamız (əsas meyvə ağacları).

Neçə ildir ki, təqaüddəyəm. «Elmi pensiya» alıram - 400$. Həyat yoldaşım Dilarə xanım (Krım-tatar türküdür) isə 100$. Şükür Allaha, biz babat dolanırıq.

Azərbaycan diasporu ilə birlikdə Füzuliyə, S.Vurğuna, Ü.Hacıbəyliyə həsr olunmuş ədəbi-bədii gecələr keçirmişəm. Tez-tez Krım televiziyasında B.Çobanzadəyə, İ.Qaspralı və R.Behbutova həsr olunmuş xatirə-bədii verilişlər təşkil etmişəm. Diasporun xahişi ilə tez-tez onlara öz «yazılarımı» oxuyuram. Hətta gecə də keçirmişik. Allah qoysa, 27.12.2007-ci ildə mənim də 70 yaşım tamam olmalıdı. Dilarə xanım 1941-ci ildə Simferopolda doğulub. Oğlum Azər 1962-ci ildə, həkim qızım Gözəl isə 1966-cı ildə doğulublar. Oğlumun əkiz oğlu var (Emin və Elçin). Bu il orta məktəbi bitirirlər. Avtomobil üzrə mühəndis olmaq istəyirlər. Qızımın isə iki qızı var. Böyük qızı Amal universitetdə hüquq fakültəsinin I kursunda oxuyur. Kiçiyi isə 2-ci sinifdədir. Yeznəm Eldar Moskvada «Avtomobil Yol İnstitutu»nu bitirib. Qaz sənayesində işləyir. Oğlum öz evində (2 etajlı), qızım isə ailəsi ilə mənim evimdə - 2-ci etajda yaşayır. Mən onlara 3 otaqlı mənzil də almışam. Saxlayıblar, Allah qoysa, Amal nəvəm ora köçəcək. Bax belə, bu gündədir mənim güzəranım.

Mərhum qızımın cəsədini (fəlakətdən sonra) Krıma gətirdim. Burada dəfn etdim. Əgər bu hadisə olmasa idi, mən dünyanın ən xoşbəxti idim. Üzdən iraq, başımın ağrıması, belimin qırılması kiçik qızım Sevillə əlaqədardır. Bizim evin yanıqları içərisində onun bir neçə şeirini tapdım. Bir də yarımçıq qalmış «Çərxi-fələk» povestini. Musiqi bəstələdiyini bilirdim, amma şeir yazdığını yox (cərxi-fələk rusca «koleso vremeni»).

Özümü tərif etmirəm, vətənim mənim simamda, şairanə qəlbli, dünya tarixini və ədəbiyyatını bilən saf ürəkli, etiqadlı, vətənin-elin sevən, istedadlı, mütəşəkkil təşkilatçı bir mühəndis-alimini itirdi. Qızım Sevilin simasında bəlkə də gələcəkdə çox məşhur ola biləcək şair və ya sənətkar bir qızını itirdi.

Bəlkə də məni 62 yaşında əlimə qələm alıb yazmağa vadar edən bu iztirabları, bu dəhşəti canımdan çıxara bilməməyin olubdur.

Həyatın doludur yeniş-yoxuşla,
Qürbət məkanını keçdin sən xoşla.
Aman ki, gec gəldin bu günkü huşa,
Keçənə güzəşt de indi sən, Valeh.

Gənclik getdi, yaşa doldun, qocaldın,
Bu dünyanı bəyaz rəngə boyadın.
Vətən eşqin uzaqlardan sorardın,
Sabaha ümidi saxla sən, Valeh.

Heç vaxt sakit olmur qəmli ürəyin,
Qohuma-qardaşa yetdi köməyin,
Xeyirxah işlərin bildin qiymətin,
Millət dərdi ilə yaşa sən, Valeh.

Əziz qardaşım! Mən daima özümü danlayırdım ki, niyə vaxtında kəndə gedib (Fərman müəllim sağ olanda) ağsaqqallardan kəndimizin tayfalarının (soyların) «nəsil ağacını» özüm üçün yazmadım. Həmişə arzum bu idi ki, rəhmətlik Hacı Axunddan başlamış bu günə kimi bütün irəli getmiş dövlət işçiləri, alimlər, yazıçılar, həkimlər, müəllimlər haqda kitab yaza biləydim. Bu mənim üçün ancaq həyata keçirilə bilinməyən bir röya idi. Burada M.Ordubadinin «Qılınc və Qələm»indəki Fəxrəddindən başlayaraq, H.Həsənov, Fərman müəllim, Verdizadə, Tofiq, Hüseyn, sən və s. olmalı idi, özü də «Soltanlılar» adı ilə. Allaha şükür, sən bunu etdin. Sağ ol, var ol, eloğlu. Xahiş edirəm, bu kitabını mənə göndərəsən. Mənə elə gəlir ki, belə kitabı sən təzədən yazmalısan, illüstrasiya, şəkillər ilə və bir neçə bölmədən ibarət: «Tarixi şəxslər», «Dövlət xadimləri», «Alimlər və yazıçılar», «Həkimlər» və s.

Qəzənfər! Soltanlı soyları haqda sənin yazdığını, əminəm ki, Azərbaycanda heç kim yazmayıb. Əgər yerevanlılar, zəngəzurlular, vedibasarlılar, göyçəbasarlılar, şuşalılar, kəlbəcərlilər və s. sənin kimi «Soy kitabı» yazsa idilər, nə olardı?! İrəvan mahalı, Vedi, Zəngəzur, Göyçə, Hamamlı, Dilican geri qayıtmayacaq təəssüf ki. Hələ Qarabağ da çox sual altındadır. Nə isə, heç ümidim yoxdur. Sən mənim yazdıqlarımın hamısını oxumusan, bilərsən ki, bizim el-oba, vətən dərdi, tökülmüş günahsız qanlarımız, tapdalanmış namusumuz, 8 milyonluq əhalimizin torpağını düşmənə pay verməsi, İrəvanı, Göyçəni, Zəngəzuru unutması həttaöz faciəmi hərdən unutmağa məni vadar edir. Sən mənim yazdıqlarımın hamısını oxumalısan və bir neçə dəfə, qəzetdə çap etdiklərini bir də oxu, hər sətiri. Hər sözü, hər nidanı bir daha təhlil et. Bu, mənə onun üçün lazımdır ki, heç olmasa, başqa bir adamın da mənim yazdığımı başa düşdüyünü bilim.

*(Davamı var)*